AZƏRBAYCAN RESPUBLİKASININ
KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ YANINDA
AQRAR XİDMƏTLƏR AGENTLİYİ

# KEYFİYYƏT İDARƏETMƏ SİSTEMİ ÜZRƏ SİYASƏT

BAKI-2019

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri**

**_______________Seymur Mövlayev**

**"15" oktyabr 2019-cu il**

## AQRAR XIDMƏTLƏR AGENTLİYİNİN KEYFİYYƏT İDARƏETMƏ SİSTEMİ ÜZRƏ SİYASƏTİ

## Sloqan - Aqrar sahədə keyfiyyətli və innovativ xidmət

Aqrar Xidmətlər Agentliyində ISO 9001:2015 standartının tələbləri əsasında Keyfiyyət İdarəetmə Sistemi (KİS) tətbiq edilmişdir.
KİS üzrə siyasət müəssisənin məqsədlərinə, kontekstinə uyğundur və müəssisənin strateji istiqamətini dəstəkləyir.
KİS üzrə **siyasətin əhatə dairəsinə** müəssisənin aşağıdakı fəaliyyəti daxildir:

**Heyvan və bitki sağlamlığı, seleksiya nailiyyətləri, toxumçuluq, nəqliyyat vasitələri və digər kənd təsərrüfatı texnikası ilə bağlı dövlət xidmətlərinin təşkili, habelə seleksiya nailiyyətləri, toxumçuluq və kənd təsərrüfatı texnikası sahələrində dövlət nəzarəti.**

### Agentliyin maraqlı tərəflərə dair öhdəlikləri:

1. *Fermerlər - Agentliyin göstərdiyi xidmətin əsas istifadəçiləri:*

a. Agentlik müntəzəm olaraq aqrar xidmətlərin tənzimləməsinə və xidmətlərin həyata keçirilməsinə nəzarəti həyata keçirir və xidmətlərin yüksək səviyyədə göstərilməsini təmin edir.

b. Agentlik həmçinin aqrar xidmətlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq layihələr həyata keçirir və infrastruktur işlərini təşkil edir.

2. *Vətəndaşlar:*

a. Sağlam və təhlükəsiz kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində insanların düzgün maarifləndirilməsi;

b. Sosial proqramları və layihələri tətbiq etməklə vətəndaşların aqrar xidmətlər sahəsində təkmilləşdirilməsinə töhfələrin verilməsi.

3. *İşçilər:*

a. Müəssisədə tətbiq olunmuş KİS-nin davamlı təkmilləşdirilməsi;

b. İş şəraitində sağlamlıq və təhlükəsizliyin təmin edilməsi üçün işlə bağlı zədələnmə və xəstəliklərin qarşısının alınması;

c. Təhlükələrin aradan qaldırılması, sağlamlıq və texniki təhlükəsizlik üzrə risklərin azaldılması;
d. İşçilərin KİS-nin təkmilləşdirilməsi məsələlərində məsləhətləşmələrin və bu işlərə cəlb olunmasının təmin edilməsi.

*4. Qanunvericilik orqanları:*
a. Agentliyin fəaliyyət sahələrinə aid qanunvericilik və digər tələblərin yerinə yetirilməsi;
b. Ətraf mühitin qorunması, o cümlədən çirklənmənin qarşısının alınması və Agentliyin konteksti nöqtəyi-nəzərindən digər öhdəliklərin yerinə yetirilməsi.

**KİS üzrə siyasətin əsas prinsipləri aşağıdakılardır:**

1. Agentliyin və tabeli qurumların proseslərinin effektivliyini artırmaq məqsədilə struktur vahidlərinin işini birgə planlaşdırmaq;
2. Mövcud təsərrüfat vasitələrinin və digər xidməti avadanlıqlarının etibarlılığını artırmaq;
3. Vətəndaşların tələbləri və gözləntilərinin ən yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək;
4. İşçilərin maksimal potensialını müəyyən etməyə yönəldilən və onların inkişafına sərf olunan investisiyaların maksimal səviyyədə geri qaytarılmasını təmin edən idarəetmə sistemi qurmaq;
5. İşçilərin peşəkarlıq səviyyəsini beynəlxalq standartların tələblərinə uyğunlaşdırmaq;
6. Bütün fəaliyyət sahələrində yeniliklərin tətbiqində təşəbbüskarlıq göstərən işçi heyətini formalaşdırmaq.

**Aqrar Xidmətlər Agentliyinin rəhbərliyi əmin edir ki, KİS üzrə siyasət:**

1) Mövcuddur və sənədləşdirilmiş informasiya kimi işlək vəziyyətdə saxlanılır;
2) İşçilərə çatdırılır, başa düşülür və müəssisə daxilində tətbiq edilir;
3) Maraqlı tərəflər üçün əlçatandır;
4) Yararlılığı davamlı olaraq nəzərdən keçirilir.